# İNSANLIĞA QARŞI ƏN AĞIR CİNAYƏT-XOCALI FACİƏSİ




Xocalı faciəsi XX əsrdə insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biridir. Faciənin üstündən 23 il keçsə də, onun vurduğu yaralar bu gun də sızlayır və heç zaman unudulmayacaq. Xocalıda dinc əhalinin vəhşicəsinə kütləvi qırğını XX əsrin Xatın, Lidiçe, Babi Yar kimi dəhşətli cinayətləri ilə bir sırada dayanır.

Tarixə nəzər salsaq, görərik ki, Xocalı faciəsi Cənubi Qafqazda və Şərqi Anadoluda həyata keçirilən qəsbkarlıq, soyqırım və etnik təmizləmə siyasətinin yeni qanlı səhifəsidir. Bu siyasətin 100 ildən artıq tarixi vardır. Bu hadisələrin təşkilatçıları bölgədə öz maraqlarını həyata kesirməyə çalışan bəzi kənar qüvvələr,



icraçıları isə erməni millətçiləridir. Təəssüf ki, müəyyən dövrə qədər erməni millətçiləri havadarlarının dəstəyindən istifadə edərək, öz niyyətlərinə nail ola biliblər. Ötən əsrdə 2 milyona yaxın günahsız azərbaycanlı və türk qətlə yetirilib. Qədim Azərbaycan torpaqlarında erməni dövlətinin qurulması üçün əraziləri boşaltmaq məqsədi ilə 1920-ci ilədək yarım milyona qədər azərbaycanlı bugünkü Ermənistan ərazisindəki doğma yurdlarından qovulub. Etnik təmizləmə sonrakı dövrlərdə də davam edib. Xocalı soyqırımından əvvəl Dağlıq Qarabağda azərbaycanlıların yaşadıqları bir sıra yaşayış məntəqələrində əhalinin böyük bir hissəsi xüsusi amansızlıqla qətlə yetirilib. Xocalı soyqırımı öz miqyasına görə bu cinayətlərin ən dəhşətlisidir.



Bəşəri cinayətlərdən sayılan Xocalı soyqırımının dünyada tanıdılması bu gün cəmiyyətimizin qarşısında duran ən ümdə vəzifələrdəndir. Azərbaycan dövləti uzun illərdir Xocalı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması üçün ardıcıl, sistemli və məqsədyönlü iş aparır. Bir neçə ölkə Xocalı soyqırımını rəsmən tanıyıb. Heydər Əliyev Fondunun vitse prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə başlanmış «Xocalıya ədalət» kompaniyası çox uğurlu nəticələr verir. Azərbaycanın diaspor təşkilatları Xocalı faciəsi ilə bağlı dünyanın hər yerində kompaniyalar aparırlar. Azərbaycan Prezidenti İlham Əliyevin faciə ilə bağlı çıxışlarında Xocalı soyqırımı dəhşətlərinin dünya ictimaiyyətinə çatdırılması, dünyada ona hüquqi-siyasi qiymətin verilməsi ilə bağlı ciddi çağırışlar olub və vurğulanıb ki, son 23 ildə dünyada bu sahədə müəyyən işlər aparılıb, müəyyən tədbirlər keçirilib. Bütün bunlar dünya ictimaiyyətinin Xocalı haqqında məlumatlandırılmasında mühüm rol oynayır. Bu, bir daha göstərir ki, Azərbaycan dövləti kifayət qədər güclü bir dövlətdir.

Xocalı soyqırımının 23 illiyi ilə bağlı rayonumuzda da tədbirlər keçirilmişdir. Rayonun mədəni-maarif ocaqlarında, təhsil müəssisələrində Xocalı qurbanlarının xatirəsi anılmış, soyqırımdan bəhs edən sənədli filmlər nümayiş olunmuş, dəyirmi masalar, söhbətlər təşkil edilmişdir.

Fevral ayının 26-da Xocalı soyqırımı qurbanlarının xatirəsini yad etmək məqsədi ilə Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı Arif Qasımov başda olmaqla rayon rəhbərliyi, hüqüq mühafizə orqanlarının rəhbərləri, idarə, müəssisə, və təşkilatların kollektivləri, eləcə də rayon ictimaiyyəti Şəhidlər Xiyabanını ziyarət etmiş, Qarabağ müharibəsi şəhidlərini anmışlar.

**R. MURADOVA.**

# ŞƏHİDLƏRİMİZİN QİSASINI ALACAĞIQ

Xocalı soyqırımı Azərbaycan tarixinə ən dəhşətli və faciəli səhifələrdən biri kimi daxil olmuşdur. Zaman keçdikcə dünya ictimaiyyəti Xocalı həqiqətlərini qəbul etməyə başlayıb. Artıq bir çox ölkələrdə Leyla Əliyevanın təşəbbüsü ilə «Xocalıya ədalət» kompaniyası adı altında tədbirlər, mitinqlər, kitablar, foto və video görüntülər dünya ictimaiyyətinin nəzərinə çatdırılmaqdadır. Bir çox ölkələrdə, o cümlədən qardaş Türkiyənin 4 şəhərində 613 şəhidin adına ağac əkmək kompaniyası, toplantılar, filmlər göstərilməkdədir. Artıq beynəlxalq aləm ermənilərin azərbaycanlılara qarşı törətdiyi bu cinayət aktını tanıyır. Odur ki, həqiqi informasiyanı Azərbaycandan almağa çalışırlar. Haqq səsimizi eşitməyə başlayırlar.

Bu günlərdə keçirilən 51-ci Münhen Təhlükəsizlik Konfransında Xocalı soyqırımı barədə açıqlama verən Prezident İlham Əliyev dünya ictimaiyyətini günahsız insanların qətli ilə nəticələnən terrora qarşı çağırmışdır. Çıxışında bildirmişdir ki, əfsuslar olsun ki, Xocalı faciəsi haqqında Avropa xalqlarının geniş məlumatı yoxdur. Baxmayaraq ki, 10-dan çox ölkə Xocalı soyqırımını tanıyıb. Təəssüflər olsun ki, bu hərbi cinayəti törətdiklərini etiraf etməyib. Onlar heç üzr də istəməyiblər. Bütün dünya ölkələri bu günü tanımalıdırlar. Azərbaycan ictimaiyyətinin dünya birliyindən gözlədiyi budur. Hər il olduğu kimi, bu il də fevral ayının 26-da saat 17-00-da bütün ölkə ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsi 1 dəqiqəlik sükutla yad ediləcək.

Xocalı faciəsinin 23-cü ildönümü münasibətilə rayon Mədəniyyət və Turizm şöbəsinin təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində toplantı keçirilmişdir. Tədbirdə Mərkəzin direktoru R. Seyidova, Ə. Əsədov, S. Əsədullayeva, V. Alışov, N. Müxtəsənova, A. Eldarov, Y. Kərəmov çıxış edərək faciə haqqında ətraflı danışdılar. Çıxışlarda xüsusi vurğulandı ki, Qarabağ torpağını, eləcə də işğal altında olan bütün torpaqlarımızı düşməndən azad edəcək, şəhidlərimizin qisasını alacağıq.

**Ramilə SEYİDOVA,**
**Heydər Əliyev Mərkəzinin direktoru.**

## Siyəzən Rayon İcra Hakimiyyəti başçısı aparatında vətəndaşların qəbulu CƏDVƏLİ

| Sıra № | Vəzifəsi | Soyadı, adı və atasının adı | Qəbul günü | Qəbul saatı |
|---|---|---|---|---|
| 1 | Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı | Qasımov Arif Adil oğlu | çərşənbə axşamı | saat 11:00-dan başlayır |
| 2 | Başçının müavini-Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri | Əliyev Zəfər Nüsrət oğlu | bazar ertəsi | saat 14:00-dan başlayır |
| 3 | Başçının müavini-Aqrar məsələlər şöbəsinin müdiri | Heydərov Etibar Murad oğlu | cümə axşamı | saat 14:00-dan başlayır |
| 4 | Başçının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri | Bəxtiyarova Təhminə Vahid qızı | çərşənbə | saat 14:00-dan başlayır |
| 5 | Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri | Bəşirov Xaqani Paşa oğlu | cümə | saat 11:00-dan başlayır |
| 6 | Hüquq şöbəsinin müdiri | Əhmədov Tofiq Həmzalı oğlu | şənbə | saat 11:00-dan başlayır |
| 7 | Memarlıq və tikinti şöbəsinin müdiri-baş memar | Novruzov Səxavət Mehdi oğlu | bazar ertəsi | saat 10:00-dan başlayır |
| 8 | Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri | Mursaquliyev Feyyaz Lətifulla oğlu | cümə axşamı | saat 10:00-dan başlayır |
| 9 | İnformasiya təminatı və təhlil sektorunun müdiri | Mürvətov Rəhman Nəcməddin oğlu | çərşənbə | saat 10:00-dan başlayır |

**Qeyd:** 1. Milli qəhrəman və onların ailə üzvləri, şəhid ailəsi üzvləri, Qarabağ əlilləri və digər imtiyazlı şəxslər növbədənkənar qəbul olunurlar.
2. Rayon İcra Hakimiyyəti başçısının qəbulu günləri bayram günlərinə düşdükdə qəbul növbəti iş gününə keçirilir.
3. Vətəndaşların qəbulu ilə əlaqədar əlaqə telefonu: (23) 304-00-10

## Siyəzən Rayonu İcra Hakimiyyəti başçısının 2015-ci ilin mart ayında keçirəcəyi səyyar qəbulların CƏDVƏLİ

| Sıra №-si | Qəbulun keçiriləcəyi yer | Tarix | Saat |
|---|---|---|---|
| 1. | Tuğay kəndi, əsas məktəbin binası | 05.03.2015 | 15:00 |
| 2. | Köhnə Quşçu kəndi, açıq havada | 13.03.2015 | 15:00 |
| 3. | Yanıq Ələz kəndi, əsas məktəbin binası | 19. 03. 2015 | 15:00 |
| 4. | Yuxarı Ələz kəndi, nümayəndəliyin binası | 29. 03. 2015 | 15:00 |

## Dövlət orqanlarının yerli qurumlarında vətəndaşların qəbulu CƏDVƏLİ

| Sıra №-si | Vəzifəsi | Soyadı, adı və atasının adı | Qəbul günü və saa |
|---|---|---|---|
| 1. | Siyəzən Rayon Gənclər və İdman İdarəsinin rəisi | Məmmədov Nadir Əmrulla oğlu | Cümə günü, saat 10:00-dan başlayır |
| 2. | Siyəzən Rayon Təhsil Şöbəsinin müdiri | Hacıyev Rəfail Məmmədrıza oğlu | Bazar ertəsi günü, saat 10:00-dan başlayır |
| 3. | Siyəzən Telekommunikasiya Qovşağının rəisi | Kəbirov Rafiq Kəbir oğlu | Hər iş günü, saat 15:00-dan başlayır |
| 4. | Siyəzən Regional Müalicə Diaqnostika Mərkəzinin baş həkimi | Hümbətov Dadaş Ümüd oğlu | Hər iş günü, saat 11:00-dan başlayır |
| 5. | Siyəzən rayon Mərkəzi Poliklinikanın baş həkimi | Cəlalov Mirələm Rahim oğlu | Hər iş günü, saat 10:00-dan başlayır |
| 6. | Siyəzən rayonu Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru | Yaqubov Mehman Nəcməddin oğlu | Bazar ertəsi günü, saat 10:00-dan başlayır |
| 7. | Qaz İstismar Sahəsinin rəis əvəzi | Nağıyev Elşən Firudin oğlu | Çərşənbə axşamı və cümə axşamı günü, saat 15:00-dan başlayır |
| 8. | Sukanal İdarəsinin rəisi | Ağayev Zamin Əlövsət oğlu | Çərşənbə axşamı və cümə günü, saat 15:00-dan başlayır |
| 9. | Dövlət Sosial Müdafiəsi Fondunun Siyəzən rayon şöbəsinin müdiri | Yunusova Güllər Cabir qızı | Cümə günü saat 16:00-dan başlayır |
| 10. | Siyəzən rayon Əhalinin sosial müdafiəsi mərkəzinin direktoru | Yusifova Kamilə Şəmsəddin qızı | Çərşənbə axşamı və cümə axşamı günü, saat 10:00-dan başlayır |
| 11. | Siyəzən Meşə Mühafizəsi və Bərpası Müəssisəsinin direktoru | Abdullayev Ramsin Nəriman oğlu | I, III, IV günlər, saat 11:00-dan başlayır |
| 12. | Siyəzən rayon Baytarlıq İdarəsinin rəisi | Qasımov Seyfulla Eynulla oğlu | Çərşənbə günü, saat 10:30-dan başlayır |
| 13. | Siyəzən rayon Məşğulluq Mərkəzinin direktoru | Eyvazov Vahid Nəcəfağa oğlu | Çərşənbə günü, saat 10:00-dan başlayır |
| 14. | Siyəzən rayonu üzrə Maliyyə Şöbəsinin rəisi | Nemətov Samir Sabir oğlu | Cümə günü, saat 10:00-dan başlayır |
| 15. | «Azərpoçt» MMC-nin Siyəzən Poçt Filialının rəisi | Aslanova Mehparə Hümbət qızı | Bazar ertəsi və cümə axşamı günü, saat 14:00-dan başlayır |
| 16. | Siyəzən Rayon Mədəniyyət və Turizm şöbəsinin müdir əvəzi | Qədirli Zəminə Əlikram qızı | Cümə günü, saat 10:00-dan başlayır |

**Qeyd:** 1. Milli qəhrəman və onların ailə üzvləri, şəhid ailəsi üzvləri, Qarabağ əlilləri və digər imtiyazlı şəxslər növbədənkənar qəbul olunurlar.

## O GÜN MÜTLƏQ GƏLƏCƏK

Sovet dövründə çəkilən filmlərə baxıram. Millətimizin hisslərində nə qədər səmimi, hakim ideologiyaya necə heyran olmasına, dövlətinə sadiq qalmasına, bəzən isə sadölövhlüyə aparıb çıxaran səmimiyyətinə heyrətlənir və açığı, bir az da təəccüb edirəm. İlahi, biz necə də sadəlövh, hətta deyərdim, nə qədər də avam olmuşuq. Axı, ətrafımız heç də belə deyildi. Onların gerçək simalarını görməyə milli xüsusiyyətlərimizmi mane olurdu, yoxsa başqa bir hal mövcud idi? Çətin sualdır.

Millətçilik məfhumu, millətçilik hissi sən demə bizdə tamamilə yoxa çıxıbmış. Elə olmasaydı, Bakı əhalisinin xeyli hissəsinin qeyri millətlərdən, ən pisi isə ermənilərdən ibarət olmasına necə dözürdük, bunu necə izah edə bilərik? Hərçənd, belə anormallıqları anlamaq doğrusu, kifayət qədər qəliz məsələdir. Qəliz olduğu qədər də (yəni, biz sadə insanlar üçün sirlər çoxdur) izahı çətindir.

Biz azərbaycanlılar Sovet dövlətini səmimi şəkildə qəbul edir, qəlbən doğma hesab edirdik. Və bizə elə gəlirdi ki, gürcülər də, ermənilər də, Pribaltika əhalisi də bizim kimi düşünür, bu dövlətin məhz onların olduqlarını, ümumi vətən anlayışını məhz bizim kimi sadəlövhcəsinə qavrayır və qəbul edirlər. Heyhat, nə qədər səhv düşünmüşük. Əslində, bu, heç vaxt belə olmayıb.

Sovet dövləti artıq yoxdur, onu da gördük ki, yox olmağının əsas səbəbkarları da məhz elə həmin millətlər oldu, biz yox. Çünki onlar Sovet dövlətini biz qavrayan kimi deyil, öz arşınları ilə ölçüb, daxillərində heç vaxt özününkü olmayan «vətən» kimi qəbul edirdilər. Hər zaman ölkənin parçalanacağını gözləyir, yeni həyata hazırlaşırdılar. Bizi isə üzümüzə əsas qapıları bağlamaqla, yalançı şüarlara inandırmağa çalışırdılar. Çalışırdılar ki, eləcə avam qalaq. Və təəssüf ki, buna da nail ola bilirdilər.

Ölkənin əsas siyasi «mətbəxindən» xəbərimiz yox idi. Olmadığı üçün də bu sadə həqiqəti indi-indi dərk etmişik. Görün nə qədər gecikmişik. Təsəvvür edirsiniz? Orta Asiya ölkələrindən danışmıram, ona görə ki, onlar da bizim kimi türk olduqları qədər sadəlövhdürlər.

Sadəlövhlüyümüzə, avamlığımıza acığım tutur. Razılaşa bilmirəm. Amma nə edəsən. Reallıq bundan ibarətdir.

Mənim millətim qüdrətli millətdir. O belə yaşamağa, belə qiymətə layiq deyildi. II cahan müharibəsinin Sovet dövlətinin qələbəsi ilə başa çatması üçün yanacağı ilə, Yusif Məmmədəliyevi ilə həlledici töhfəsini vermiş Azərbaycan bu qiymətə layiq deyildi. Amma onlar nəinki minnətdarlıq etmədilər, borclu olduqlarını dilə gətirmədilər, heç üstünü vurmağa belə həvəsli deyildilər.

Özlüyündə sual yaranır. Yəni biz doğrudanmı bu qədər sadəlövhmişik. Yəni bizdən bir nəfər də olsun vəziyyəti dəyərləndirə bilən yox idi? Yox, min dəfə yox. Bizdən qorxurdular, bu gün də qorxurlar. (Niyə qorxurlar? Bu haqda bir qədər sonra.) Ona görə, bizi heç cürə idarəetmə sükanına yaxın buraxmaq istəmirdilər və buraxmırdılar da. Qısa bir müddətə Heydər Əliyevə (uzun illər keçəndən sonra) belə bir imkan yaratdılar. Və dərhal da «səhv» etdiklərini anlayıb, onu idarəetmədən uzaqlaşdırdılar. Heydər Əliyev onlarla təkbaşına mübarizə aparırdı. Onun əlinin idarəetmə sükanına toxunması planlarını alt-üst edirdi. Yeganə çıxış yolu birləşmiş qüvvələrlə onu mərkəzdən uzaqlaşdırmaq idi. Bunu da etdilər.

Və yalnız Sovet dövləti dağılandan sonra biz sadə xalq haramzada ermənilərin (bu millət haqqında başqa ifadə işlətmək olmur) Sovet dönəmində nə qədər pis işlərlə məşğul olmalarının şahidi olduq.

Qayıdıram niyə bizdən qorxmalarının səbəblərinə. Ulu Öndərin və möhtərəm Prezidentimizin verdiyi açıqlamalar, yaxın keçmişimizin, eləcə də çağdaş günlərimizin siyasi təhlilləri göstərir ki, haramzada erməni əslində heç kimdir. Vəziyyətin məhz indiki kimi şəkil alması böyük qüvvələrin strategiyası ilə bağlı olan məsələdir.

Stalin, Mikoyan və bir çox Sovet rəhbərləri inqilabi fəaliyyətlərinə Bakıda başlayıblar və yaxud deyək ki, müəyyən dövründü burada keçiriblər. Bəs nədən onlarla birgə mərkəzi hakimiyyətə bir nəfər də olsun azərbaycanlı keçə bilmədi? Hə... məsələ ondadır ki, şovinizm buna imkan vermirdi. «Gizli kitablarında» yazılmış qanunlara ciddi əməl olunurdu. Orada nə yazılmışdır? Mən öz təxəyyülümə əsaslanaraq deyə bilərəm ki, əslində elə də böyük sirr deyil. Bəs nədir məsələ?

Məsələ bütöv, Böyük Azərbaycan məsələsidir. Xəritəyə baxın. Əgər Azərbaycan öz tarixi torpaqlarını birləşdirib vahid halına gələrsə, bu, dünyanın məcburi olaraq, bəli, bütün dünyanın məcburi olaraq hesablaşacağı qüdrətli bir dövlət deməkdir. Zəngin, güclü bir dövlət. Nə yaxın ətrafımıza, nə də böyük güclərə sərf edən dövlət. İTV-də deyildiyi kimi, dünyanın 11 iqlim qurşağından 9-nun olduğu ölkə.

Amma həyat davam edir. Dünyada tədrici də olsa, qlobal dəyişikliklər gedir. Ona görə, ümidimizi itirə bilmərik. O gün mütləq gəlməlidir. O günə inanmalıyıq və yəqin ki, gələcək.

**İ. İLYASOV.**

## XOCALI SOYQIRIMI

Tarixin müxtəlif dönəmlərində ermənilər tərəfindən soyqırımına məruz qalan Azərbaycan xalqı növbəti belə faciə ilə 1992-ci ilin qarlı qışında Xocalıda üzləşdi. Dövlət müstəqilliyini yenicə qazanan Azərbaycanın üzləşdiyi ərazi itkisi ilə yanaşı, əsrin ən dəhşətli faciələrindən birini yaşaması ölkəmizin yeni tarixinə qara hərflərlə yazıldı.

Qeyd etmək lazımdır ki, Azərbaycan xalqı 200 il ərzində erməni millətçi-şovinistlərinin davamlı olaraq etnik təmizləmə, soyqırım siyasətinə məruz qalmışdır. Azərbaycan xalqı tarixi torpaqlarından qovulmuş, qaçqına, məcburi köçkünə çevrilmiş və bütün bunlar ermənilər tərəfindən kütləvi qırğınlarla müşayiət olunmuşdur. Azərbaycanlıların öz tarixi-etnik torpaqlarından qovulması sovet dövründə də davam etmişdir. 1948-1953-cü illərdə Ermənistandan 150 min azərbaycanlı deportasiya olunmuş, Azərbaycanın Kür-Araz düzənliyində yerləşdirilmişdir. 1988-ci ildə isə öz tarixi torpaqlarında yaşayan 250 min azərbaycanlı bu ərazidən qovulmuş, bununla da Ermənistan monoetnik dövlətə çevrilmişdir. 1988-ci ildən Dağlıq Qarabağ ətrafında başlayan hadisələr erməni ideoloqlarının «dənizdən dənizə Ermənistan» adlı sərsəm bir ideyasını reallaşdırmaq cəhdi kəndlərdin, şəhərlərin dağılması, on minlərlə günahsız insanın ölümü, yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından didərgin düşməsi ilə nəticələndi.

Bütün beynəlxalq hüquq normalarına zidd olaraq Ermənistan dövləti Dağlıq Qarabağı özünə birləşdirmək istəyir, bu yolda bütün cinayət və vəhşiliyə hazır olduqlarını nümayiş etdirirlər. XX əsrin faciəsi olan Xocalı soyqırımı bu aqressiv və cinayətkar erməni siyasətinin nəticəsidir. XX əsrin sonunda baş vermiş bu faciə təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa, bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdən biridir. Xocalı soyqırımı əsrin Xatın, Xirosima, Naqasaki və Sonqmi kimi dəhşətli faciələri ilə bir sırada dayanır.

1992-ci il fevralın 26-da Ermənistan hərbi birləşmələri 7 min əhalisi olanXocalı şəhərində genosid aktı həyata keçirdi. Ermənistan hərbi birləşmələrinin şəhərə hücumu zamanı burada yalnız 3 minə yaxın insan qalmışdı. Çünki mühasirədə qaldığı 4 aydan artıq zaman ərzində blokadada olduğu üçün əhalinin xeyli hissəsi şəhərdən çıxmaq məcburiyyətində qalmışdı. Xocalı soyqırımı zamanı 613 nəfər öldürüldü, 1000 nəfər müxtəlif yaşlı dinc sakin aldığı güllə yarasından əlil oldu. 106 nəfər qadın, 63 azyaşlı uşaq, 70 qoca öldürüldü. 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 nəfər valideynlərindən birini itirdi. Faciə baş verən gecə 1275 nəfər dinc sakin girov götürüldü, onların 150-sinin taleyi indi də məlum deyil.

Şəhər əhalisinin bir hissəsi zorakılıqdan qaçıb qurtarmaq istəyərkən əvvəlcədən düzəldilmiş pusqularda qətlə yetirilmişdir. Rusiyanın «Memorial» hüquq-müdafiə mərkəzinin məlumatına əsasən, dörd gün ərzində Ağdama Xocalıda qətlə yetirilmiş 200 azərbaycanlının meyiti gətirilmiş, onlarla meyitin təhqirə məruz qalması faktı aşkar edilmişdir. Ağdamda 181 meyit (130 kişi və 51 qadın, o cümlədən 13 uşaq) məhkəmə-tibbi ekspertizasından keçirilmişdir. Ekspertiza zamanı müəyyən edilmişdir ki, 151 nəfərin ölümünə güllə yaraları, 20 nəfərin ölümünə qəlpə yaraları səbəb olmuş. 10 nəfər küt alətlə vurularaq öldürülmüşdür. Hüquq-müdafiə mərkəzi diri adamın baş dərisinin soyulması faktını da qeydə almışdır.

Ermənilər sağ qalmış insanlar üzərində tamamilə təhqiredici hərəkətlər həyata keçirmişdilər. Onların başının dərisini soymuş, başlarını və bədəninin digər orqanlarını kəsmiş, uşaqların gözlərini çıxarmış, hamilə qadınların qarnını yarmışdılar. Hücum zamanı Xocalıda istifadəsi qadağan olunmuş 5,45 kalibrli patronlardan və kimyəvi silahlardan istifadə edilmişdir. Bütün bunlar Ermənistanın Cenevrə konvesiyasının protokollarını pozaraq, müharibə qaydalarına zidd olaraq dinc sakinlərə qarşı həyata keçirilən soyqırım olduğunu təsdiqləyir.

**Rauf MALIŞOV,**
**Siyəzən rayon prokurorunun**
**böyük köməkçisi,**
**II dərəcəli hüquqşünas.**

## SİYƏZƏN BARƏDƏ BİLDİKLƏRİMİZ

**11 fevral 1940-cı il. Siyəzən rayonunun ilk dəfə təşkil olunduğu tarix. 75 illik bir zaman. Tarixin qarma-qarışıq dövrünü sürmüş bir tale. Dəfələrlə haqsızlıqlar yaşamış məkan.**

Siyəzənin əvvəlki illəri ilə bağlı tarixi barədə çox az mənbələrə malikik. Bu haqda danışa biləcək insanların sırası da çox seyrəlib. Qalanlar da bu haqda yazmağa meylli deyillər. Bəs nə etməli?

Ötən illərdən bizə çatan təcrübə bu tarixin yazıya köçürülməsini zəruri edir. Özümüz yazmayanda bunu başqaları edir. Necə ki, vaxtilə ermənilər uydurma əsaslar üzərində özlərinə və qonşularına yalançı tarix yazırdılar.

Əlbəttə, tariximizi yazıya köçürməliyik. Və bunu mənəvi borc olaraq etməliyik. Doğrudur, olduqca çətin məsələdir. Amma zərurətdir. Rayonun adlı-sanlı insanları, yaşayış məntəqələrinin zahiri simasının dəyişməsi, mədəni həyatı, sənayesi, kənd təsərrüfatı, infrastruktur layihələri və s. kimi sahələrin araşdırılması ayrı-ayrı söhbətlərin mövzusu ola bilər. Odur ki, belə mövzularda hazırlanan və oxucunun marağına səbəb ola biləcək yazıları məmnuniyyətlə dərc edərdik.

Yeri gəlmişkən, Siyəzənin ümumi tarixi, eləcə də onun neft sənayesi ilə bağlı tarixi barədə qəzetimizdə çıxışlar olub. Lakin hesab edirəm ki, bu, elə geniş mövzudur ki, yazdıqca yazmaq olar. Ələlxüsus, Siyəzənin son illərdəki inkişafı, yeniliklərlə dolu həyatı barədə yazmamaq sadəcə, mümkün deyil.

Biz bu mövzuda danışmağa başlayarkən, nədənsə bir qayda olaraq, Siyəzən sözünün etimologiyasından başlayırıq. Halbuki yaşadığımız şəhərin ilk adı el arasında Siyəzən yox, Qızılburun olubdur. Və bu barədə ilk mənbə kimi də A. Dümanın «Qafqaz səfəri» əsərində məlumat əldə edirik. Hətta yerli əhali də keçən əsrin 70-ci illərinə qədər öz şəhərlərini Qızılburun adlandırırdı. Amma niyə görəsə şəhərimiz sonradan Siyəzən adlandırılıbdır.

1963-cü ildə Siyəzən şəhərində 12 min nəfərə yaxın əhali yaşayırdı. Bu gün isə 25 minə yaxın. İlk dövrlərdə əhalinin məşğulluğu əsasən neft sənayesi və çox kiçik miqyasda kənd təsərrüfatı ilə bağlı idi. Bu gün isə Siyəzən Broyler Fabriki və yerli sahibkarların qurduqları xeyli sayda kiçik müəssisələr, inkişaf edən tikinti sektoru və s. kimi sahələr işsizliyin minimuma endirilməsinə gətirib çıxarıb.

Kəndlərimizdə məktəblər uyğunlaşdırılmış, hətta minimum tələblərə belə cavab verə bilməyən binalarda (bəzən şəxsi evlərdə) yerləşirdisə, bu gün həmin problem həllini tam mənasında tapıbdır. Amma yada salaq ki, kəndlərimizdən hələ son dövrlərə qədər yalnız Yenikənd və Zarat kəndlərində yeni məktəb binaları var idi. İndi özünüz təsəvvür edin, şəhərimizin o zamankı rəhbərliyi, yəni şəhər sovetinin özü yararsız binada yerləşirdisə, başqa nə gözləmək olardı. Xəstəxanalar köhnə, təmirsiz binalarda yerləşirdi. Görün inkişaf hansı səviyyəyə çatıb, müqayisəyə dəyərmi?

İnkişaf hər zaman gözlənilən prosesdir. Lakin biz yaşlı insanlar üçün «Meşədinin bağı», Dəmir yolu vağzalının ətrafı, demək olar ki, tam şəraitsiz, amma hətta Respublikaya tanınmış idmançılar bəxş edən idman zalımız (təxminən indiki fəvvarənin yerində yerləşirdi) inanın ki, yaddan çıxmır. Bu o demək deyildir ki, biz köhnəlikdə, tələblərimizi ödəyəsi halda olmayan belə şəraitsizlikləri qoruyub saxlamaqda israrlıyıq, xeyr. Əgər obyekt arxitektura baxımından mükəmməldirsə, bu başqa məsələ. Onu qoruyub saxlamağa dəyər. Əsas odur ki, insanlarda işləmək əzmi, qurub-yaratmaq həvəsi sönməsin. Xoşdur ki, bu ənənə davam edir. Bir də, yada salaq ki, adını çəkdiyim yerlərin memarlıq və qədimililiklə bağlı parametrləri gələcək üçün saxlanılmasını zəruri etmirdi. Mədəniyyət Sarayının binası-bu, tamam başqa məsələ.

Son dövrlər Siyəzəndə (həm şəhərdə, həm də kəndlərimizdə) həyata keçirilən tikinti-abadlıq və quruculuq işləri bütün əvvəlki dövrlərlə müqayisəyə gəlməyəcək yeniliklərdir. Bu haqda biz hər dəfə yazılar veririk. Əlbəttə, bundan sonra da davam edəcəyik. Lakin yaşadığımız yerin ənənələri, örnək ola biləcək maraqlı, ibrətamiz xüsusiyyətləri barədə yazmaq lazımdır. Bunu biz etməliyik, sizinlə birgə. Və mövzunu burada heç də qapamayaraq, sizi də bizə qoşulmağa dəvət edirik.

Keçmişimiz və bu günümüz barədə bilgilərinizi bizimlə bölüşün.

**İ. İLYASOV.**

## ORDUYA XİDMƏTƏ YOLA SALINANLAR

Orduya qış çağırışı uğurla başa çatmışdır. Çağırış yaşına çatan gənclərimiz ordu sıralarında xidmət etmək üçün xidmət yerlərinə yola salınmışdır.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Siyəzən rayon bölməsinin rəisi Ramin Mustafayev bizimlə söhbətində bildirdi ki, kompaniya rayonumuzda yüksək səviyyədə təşkil olunmuş, bu prosesdən yayınan olmamışdır. Yola salınma tədbirləri valideynlərin, eləcə də ağsaqqalların iştirakı ilə keçirilmiş, gənclərimiz toy-bayram sevinci ilə yola salınmışdır.

## ƏHALİNİN TİBBİ MÜAYİNƏDƏN KEÇİRİLMƏSİ BARƏDƏ TAPŞIRIQ İCRA OLUNUR

Prezident İlham Əliyevin ölkə vətəndaşlarının tibbi müayinədən keçirilməsi barədəki tapşırığı bu il də uğurla icra olunur.

Siyəzən rayon Mərkəzi Poliklinikasının baş həkimi Mirələm Cəlalov qeyd etdi ki, indiyədək xeyli sayda vətəndaş dövlət başçısının tapşırığı ilə həyata keçirilən müayinələrdən yararlanmışdır. Hazırda bu proses davam edir və fürsətdən istifadə edərək əhalini müayinədən keçməyə dəvət edirik.

**"ÇIRAQ"**

## ƏHALİNİN NƏZƏRİNƏ!

**Son illər gördüyünüz kimi, Siyəzən şəhərinin təmizliyi ilə bağlı yaxşılığa doğru böyük, köklü dəyişikliklər baş verib. Bu baxımdan biz Siyəzən Kommunal Müəssisələri Kombinatının işçilərinin öz işlərini vicdanla yerinə yetirmələrindən razı qalmaya bilmərik.**

**Lakin bəzi hallarda zibil qutularının ətrafında müşahidə etdiyimiz üfunətli mənzərəni görərkən, bu vəziyyəti yaradan şəhər sakinlərinə təəccüb edirik. Təəccüb edirik ki, belə vəziyyətin onun sağlamlığı ilə birbaşa əlaqəsi olmasını niyə lazımınca dərk etmir?**

**Sirr deyil ki, insanlarımız KMK-da çalışmağa meylli deyillər. Lakin əksəriyyətimizin tələbləri isə böyük. Təzaddır, deyilmi? Yaxşı, özün bu sahədə çalışmaq istəmirsən. Bəs bu təşkilata olan borcunu ödəməyə nə deyəsən? Həm pul verməə, həm də ayağının altını təmiz istə. Bu, insafdandırmı? Ona görə, xahiş edirik, heç olmasa borclarınızı vaxtında ödəyin.**

**«ÇIRAQ»**

## GƏNCLƏR GÜNÜ

2 Fevral «Azərbaycan gəncləri günü» respublikamızın hər yerində olduğu kimi, Siyəzən rayonunda da qeyd edildi. Bu münasibətlə Gənclər Mərkəzində bayram tədbiri təşkil olunmuşdur. Tədbirdə rayonun müxtəlif idarə, müəssisə və təşkilatlarında çalışan və ictimai sahədə fəallığı ilə seçilən gənclər, həmçinin rayon ictimaiyyətinin nümayəndələri iştirak etmişdir.




Gənclər və İdman İdarəsinin rəisi Nadir Məmmədov tədbiri açdıqdan sonra dövlət gənclər siyasətinin əsas istiqamətlərini, eləcə də ötən il ərzində idarə tərəfindən gənclər və idman sahələri üzrə həyata keçirilən tədbirləri və qazanılan uğurları özündə əks etdirən hesabat məruzəsi ilə çıxış etdi.

Heydər Əliyev Mərkəzinin direktoru Ramilə Seyidova çıxışında qeyd etdi ki, Azərbaycanda ölkə rəhbərliyi tərəfindən gənc nəslə olan diqqət və qayğı hər zaman diqqət mərkəzində olmuşdur.

Daha sonra Gilgilçay qəsəbə tam orta məktəbin direktoru Samir Baxşıyev, şəhər 1 saylı tam orta məktəbin Azərbaycan dili və ədəbiyyatı müəllimi Şəhla Nadirova, Uşaq Yaradıcılıq Mərkəzinin direktoru Şəms Hüseynova və şəhər 6 saylı məktəb-liseyin tarix müəllimi Pərvin Ağasıyev çıxış edərək gənclərin ölkənin ictimai-siyasi, iqtisadi və mədəni həyatındakı fəal iştirakının təmin olunması, gənc istedadlara dövlət qayğısının artırılması və ümumilikdə dövlət gənclər siyasətinin həyata keçirilməsi istiqamətində görülən işlərdən danışdılar. Çıxışlarla yanaşı, tədbirdə müğənnilərin ifasında rəngarəng mahnılar səsləndirildi.

Siyəzən Rayonu İcra Hakimiyyətinin başçısı Arif Qasımov yekun sözlə çıxış edərək bildirdi ki, ötən illər ərzində gənclər siyasəti sahəsində böyük işlər görülmüşdür. Görülən işlərin nəticəsidir ki, gənclərimiz müxtəlif sahələr üzrə uğurlara imza atır, cəmiyyətin həyatında fəal rol oynayırlar. İdmançılarımız beynəlxalq yarışlarda böyük qələbələr qazanırlar. Gənclərimiz bundan sonra da ölkəmizin inkişafı naminə bütün qüvvəsini toplamalı, vətənin inkişafı üçün səylə çalışmalıdırlar.

Tədbirin sonunda bir qrup gənc Siyəzən Rayonu İcra Hakimiyyəti başçısı tərəfindən fəxri-fərmanlarla təltif olunmuşdur.

**Nadir MƏMMƏDOV,**
**Gənclər və İdman İdarəsinin rəisi.**

## MÜBARİZƏNİN SƏMƏRƏLİLİYİNİ ARTIRMAQ MƏQSƏDİLƏ

Bu gün müasir dünyada bəşəriyyəti düşündürən, cəmiyyəti ciddi narahat edən problemlər içərisində ən mürəkkəbi, ən ağrılısı, millətin təhlükə mənbəyinə çevrilən narkomaniyadır.

Siyəzən şəhər 6 saylı tam orta məktəbində keçirilən toplantıda da narkomaniya və narkobiznes haqqında ətraflı danışıldı. Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə düzənlənən tədbirdə yuxarı sinif şagirdləri, müəllimlər, hüquq mühafizə orqanlarının əməkdaşları iştirak edirdilər.

Siyəzən Rayon Polis Şöbəsinin rəisi, polis polkovniki Sənan Əsədov iştirakçılara əsrin bəlası olan, ən faciəvi nəticələrə gətirib çıxaran narkomaniya barədə əhatəli danışdı. Məruzəçi bildirdi ki, mütəxəssislərin hesablamalarına görə, narkotiklərin qanunsuz dövriyyəsindən hər il yüz milyardlarla dollar çirkli pullar əldə edilir. Dünyada milyonlarla, ölkəmizdə isə minlərlə insan bu bəladan əziyyət çəkir. Ən acınacaqlısı isə budur ki, gənclər və yeniyetmələr arasında narkotiklərə aludəçilik halları yüksələn xətlə artmağa doğru gedir.

Polis rəisi daha sonra vurğuladı ki, bəşəriyyətin bu dəhşətli bəlasına qarşı ayrı-ayrı dövlət strukturları, qeyri-hökumət təşkilatları, hüquq mühafizə orqanları, kütləvi inforomasiya vasitələri, təhsil və səhiyyə sistemi birgə mübarizə aparmaqla onun qismən də olsa yayılmasının və kütləvi hal almasının qarşısını ala bilər. BMT-nin 1987-ci il Konvensiyasına daxil olan ölkələrin «Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında» bəyannaməsinə əsasən, 26 iyun «Narkomaniya və narkotiklərin qeyri-qanuni dövriyyəsinə qarşı Ümumdünya mübarizə günü» kimi qeyd olunur. 1992-ci ildə Azərbaycan Respublikası BMT-yə tam hüquqlu üzv olduqdan sonra həmin Konvensiyaya qoşulmuşdur. Müstəqil Azərbaycan Respublikası artıq 20 ildən çoxdur ki, beynəlxalq ictimaiyyət və aparıcı dünya dövlətləri ilə birgə bu problemin həlli yolunda ardıcıl və məqsədyönlü addımlar atır.

Siyəzən Rayon Məhkəməsinin hakimi İlqar Quliyev, Rayon Prokurorunun köməkçisi, kiçik ədliyyə müşaviri Mirdamət Əliyev, İH-nin məsul işçisi Həsənağa Əliyev, Təhsil Şöbəsinin müdiri Rafail Hacıyev, Siyəzən RDM-də baş həkimin müavini İlqar Osmanov, Peşə məktəbinin direktoru Pirverdi Tarverdiyev, hüquq işçisi Yəhya Nəzərov çıxış edərək bildirdilər ki, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 24 iyun 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomaniyaya qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramının» maddələrinin öyrənilməsi və aidiyyəti qurumlar tərəfindən icra olunmasının təşkilinin vəziyyəti ilə bağlı əhali arasında, xüsusilə yeniyetmə və gənclərlə mütəmadi maarifləndirici söhbətlər, görüşlər keçirilmişdir. Şagirdlərə açıqlandı ki, narkotik vasitə mərkəzi sinir sisteminə təsir göstərən və tez bir zamanda asılılıq yaradan maddədir. O toksik maddə olduğundan insanın bütün orqanizminə, ürək-damar sistemindən tutmuş sinir sisteminə qədər mənfi təsir göstərərək onun xarakterini dəyişir, xəstə özünü idarə edə bilmir. Erkən yaşından narkotik qəbul etməyə başlayan insanın orta ömrü 35-40 il olur.

Toplantını Polis Şöbəsinin rəisi, polis polkovniki Sənan Əsədov yekunlaşdırdı. O, tədbir iştirakçılarına müraciətlə söylədi ki, antinarkotik təbliğat daha da gücləndirilməlidir. Mübarizənin səmərəliliyini artırmaq məqsədilə müasir telekommunikasiya və informasiya texnologiyalarının imkanlarından maksimum istifadə edilməli, mövzu ilə bağlı məktəblilərlə , gənclərlə görüşlər, seimnarlar keçirilməli, müzakirələr aparılmalıdır. Rəis sonda xüsusi vurğuladı ki, gənclərdə vətənpərvərlik hisslərinin gücləndirilməsində, sağlam həyat tərzinin təbliğ olunmasında və dövlətimizə layiqli vətəndaş kimi formalaşmalarında hər birimiz öz dəyərli tövsiyələrimizi verməli, bütün imkanlardan maksimumu istifadəyə çalışmalıyıq.

**«ÇIRAQ»**

## İDMAN YARIŞLARINDA

**3-6 fevral tarixlərdə Bakı şəhərində 21 yaşa qədər gənclər arasında cüdo üzrə Azərbaycan birinciliyi keçirilmişdir.**

**Yarışda rayonumuzun cüdo məktəbinin yetirməsi Səfərova Bəsti (məşqçi Yavuz Əliyev) 63 kq çəki dərəcəsində I yerə çıxmışdır.**




******

5-8 fevral tarixlərdə Bakı şəhərində yeniyetmələr və gənclər arasında sambo üzrə Azərbaycan birinciliyi keçirilmişdir.

Yarışda yeniyetmələr arasında 60 kq çəki dərəcəsində Əsgərov Bahadır (məşqçi Yavuz Əliyev), 70 kq çəki dərəcəsində Balayev Saleh (məşqçi Zaur Həmzəyev) II yerə, gənclər arasında isə 62 kq çəki dərəcəsində Hüseynzadə Kamran II, 57 kq çəki dərəcəsində Muradov Rəşad (məşqçi Yavuz Əliyev) III yerə çıxmışdır.

******

**25 yanvar-1 fevral tarixlərdə Bakı şəhərində 15-16 yaşlı yeniyetmələr arasında boks üzrə Azərbaycan birinciliyi keçirilmişdir.**

**Yarışda rayonumuzun boks məktəbinin yetirməsi Babayev Əflatun (məşqçi Elman Abdullayev) 46 kq çəki dərəcəsində II yerə çıxmışdır.**

******

16-18 fevral 2015-ci il tarixlərdə Sumqayıt şəhərində 15 yaşa qədər yeniyetmələr arasında cüdo üzrə Azərbaycan birinciliyi keçirilmişdir.

Yarışda Siyəzən cüdo məktəbinin yetirmələri Adıgözəlli Nicat (38 kq) və Qasımov Kamran (42 kq) (məşqçi Zaur Həmzəyev) I yerə çıxmışdır.

******

14-20 fevral 2015-ci il tarixlərdə Bakı şəhərində gənclər arasında boks üzrə Azərbaycan birinciliyi keçirilmişdir.

Yarışda Siyəzən boks məktəbinin yetirmələri Hüseynli Rəşid (49 kq) və Bənibəşərati Rüfət (56 kq) (məşqçi Elman Abdullayev) III yerə çıxmışlar.

**Nadir MƏMMƏDOV,**
**Gənclər və İdman İdarəsinin rəisi.**

**Narkomaniyaya yox deyək!**

## QATİL

Çıxıb ekranlarda sən ağlayırsan,
Niyə ağlamadın tökdüyün Qana?!
Vəhşisən, bununla göz bağlayırsan,
Sən necə qıydın bəs o şirin cana?!

Ana qatilisən, ata qatili,
Nə qədər uşağı yetim qoymusan.
Gəl burax özündən bəd əməlləri,
Qalıb türmələrdə sən qocalmısan.

Adam öldürməyi sanma hünərdir,
Günahdır qarışqa öldürsən belə!
Qayıt haqq yoluna, hələ gec deyil,
Daha günah etmə sən bilə-bilə!

## HİKMƏTLƏR

Məntiqsiz, dəlilsiz sözlər danışmaq
Savadsız adamın işidir ancaq.
Uydurma sözlərlə danışma gəl sən,
Hörmətin azalar, gözdən düşərsən.

Sanma qarşındakı acizdir bəlkə,
Adi dəmcidə da vardır təhlükə.
Döyəclər, daşları parçalayar o,
Sonra da eyləyər o, tikə-tikə!

Şər ilə, böhtanla danışmı gəl sən,
Haqsız əməlindən tora düşərsən.
Yamanlıqla insan ucalmaz heç vaxt,
Belə adamları sevməyir həyat!

Çoxlu kitab oxu, əxz elə,
Elm ilə ucaldı insan göylərə.
Bil ki təmənnasız müəllimdir kitab,
Kitabı oxumaq savabdır, savab!

Firdovsi, hikmətlər söylədikcə sən,
Pak olur, durulur, saflaşır bədən.
Dualar etdikcə sən yaradana,
Şəfaət bəxş edər xəstə canına.

Sanma ki, bu dünya müvəqqətidir,
İnsan köçəridir, o, əbədidir.
Təmiz əməllərlə yaşa həyatda,
Yaxşı insan kimi qalasan yadda.

**Firdovsi ƏLƏMOĞLU,**
**həkim.**

## UNUDURUQ AYI, İLİ

Unuduruq ayı, ili,
Günlər yaman əldən gedir.
Gocaldıqca görən nədən?
Fəsillər də tez dəyişir.

Yaz olmamış, Bahar gəlir,
Payız yaza sən qaç deyir.
Biz yedikcə meyvələri,
Ağaclar yarpağın tökür.

Dəyişdikcə bax, fəsillər,
Necə insan yola salır,
Neçəsini qarşılayır,
Bu işindən o həzz alır.

Qəribədir bu təbiət,
Getsə də, gəlsə də insan,
O dəyişmir, işindədir,
Dəyirman tək o üyüdür.
Fərqi yoxdur, onun üçün.
Kim ölür, kim dirilir.

## NƏVƏLƏRİM

Xoş anım,
Xoş dəqiqəm,
Xoş günüm,
Nəvələrim.
Xoş ayım,
Xoş ilim,
Gələcəyim,
Nəvələrim.
Xoş arzum,
Sevincim,
Fərəhim,
Nəvələrim.
Mənim ömrüm, günüm,
Son mənzilimin memarı,
Məni yola salanım,
Nəvələrim.
Qəbr üstü abidəm,
Məni həmişə andıran,
Bu gündən gələcəyə körpüm,
Nəvələrim.
Mənim xoş sorağım,
Məni mənsiz yaşadan,
Daima xatırladan,
Nəvələrim.
Babasının başın uca edən,
Xalqına layiq
vətəndaş olacağına
şübhəm yox mənim,
Nəvələrim.

**Yaqub MÜRVƏTOV,**
**Siyəzən şəhər 2 saylı orta məktəbin riyaziyyat müəllimi.**

### İTMİŞDİR

Hasilov Xəqani Vaqif oğluna 12.08 2009-cu il tarixdə verilmiş BB №026775 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

### ALLAH RƏHMƏT ELƏSİN!

Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı Arif Qasımov və aparatın kollektivi şəhid anası **Səhər Hüseynovanın** vəfatından kədərləndiklərini bildirir, ailəsinə dərin hüznlə başsağlığı verirlər.

İlyas İlyasov Yusif, Vahid və Xəqani Məmmədovlara qardaşları **Məmmədtağı Məmmədovun** vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

İlyas İlyasov Aydın Tağıyevə qaynanası **Ayət Məmmədmusa qızının** vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

Reyhan Muradova ailəsi ilə birlikdə şəhid anası **Səhər Hüseynovanın** vəfatından kədərləndiyini bildirir, ailəsinə dərin hüznlə başsağlığı verir.

**Redaktor İlyas İLYASOV**

**Təsisçilər:** Siyəzən Rayon İcra Hakimiyyəti başçısının aparatı və redaksiyanın jurnalist kollektivi

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınmışdır Qeydiyyat № 314
Redaksiyanın ünvanı: Siyəzən şəhəri, Şəhriyar küçəsi, 1a

Qəzet "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur

Sifariş 752
Tiraj 500
"Kapitalbank"ın Siyəzən filialı
AZ 20 AİİB
33080019445500250155
kod 200554
VÖEN 7100046791
telefon: 304-04-83